# Şərəf və qəhrəmanlıq səhifəsi - 20 yanvar

***Azərbaycan xalqının tarixinə Qanlı Yanvar kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən 28 il keçir.***

***Keçmiş sovet dövlətinin həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaqdır. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı basqın nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya nümayiş etdirdi.***

1990-cı ilin yanvarın 20-də azərbaycan xalqının başına gətirilən dəhşətli faciəni Qarabağdakı erməni təcavuzündən ayrıca qiymətləndirmək düzgün olmazdı. Çünki Azərbaycan həmin dövrdə bədnam qonşu Ermənistanın təcavuzunə də məruz qalmışdı. Belə bir şəraitdə çovet rəhbərliyi erməni seperatçıları tərəfindən başlanmış münaqişənin qarşısını almaq üçün tədbir görməmiş, əksinə onun ərazi iddiasına gizli və aşkar şəkildə dəstək vermişdi. Sovet rəhbərliyi, xüsusən, ermənipərəst M.S. Qorbaçov 20 yanvarda Azərbaycanlılara qarşıv törədilən soyqırımının dəhşətliliyini artırmaq üçün Bakıya yeridilən qoşuna çoxlu sayda erməni millətindən olan əsgər və zabit cəlb edilməsinə sərəncam vermişdi.

Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcəvüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz etirazını bildirən geniş xalq kütləsinə qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı ilin 20 yanvarında qanlı faciəyə gətirib çıxardı.

1990-cı ilin yanvar ayının 19-da SSRİ-nin rəhbəri M. Qorbaçov İttifaq və Azərbaycan SSR-in konstitusiyalarını kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalasa da əhaliyə bu barədə xəbərdarlıq edilmədən qoşunlar Bakıya yeridildi.

Yanvarın 20-də təkcə Bakıda 131 insan öldürülmüş 744 adam yaralanmış, 4 şəxs itkin düşmüş, 400 nəfər həbs edilmişdi. Fövqəladə vəziyyət elan edilməyən rayonlarda—Neftçala və Lənkaranda 25-26 nəfər öldürülmüşdü.

20 Yanvar hadisələrinə özünü demokratik adlandıran qərb dövlətləri biganə münasibət bəsləmişdilər. ABŞ hökuməti Bakıya qoşun yeridilməsini anlayışla qarşıladığını bildirmiş, Avropa İttifaqı Qorbaçov yenidənqurmasının qan axıdılmadan tətbiq edilməsinin mümkünsüzlüyünü qeyd etmişdi. Qəribədir ki, həmin dövlətlər Tbilisidə, Vilnüsdə sovet ordusunun daha kiçik hərəkətinə çox sərf bəyanatla münasibət bildirmişdilər. Təsadüfi deyil ki, 20 Yanvar hadisəsindən sonra Qərb dövlətləri M. Qorbaçovun Nobel sülh mükafatına layiq görülməsinə nail oldular. Budur, ikili standartın bariz nümunəsi.

O zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmiş, SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edən bəyanatla çıxış etmişdi. Azərbaycan rəhbərliyinə qayıdışdan sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin mart ayında Azərbaycan Respublikasının Milli Məclisi xalqımıza qarşı təcavüzkarlıq aktı olan 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermişdi.

20 Yanvar xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. Bu hadisə ilə xalqımız vətənin azadlığı və ərazi bütövlüyü uğrunda hər fədakarlığa - canından keçməyə belə hazır olduğunu sübut etdi.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**

# Şəhidlik zirvəsi

Dahilərimiz əbəs deməyib:

—Torpaq, uğrunda ölən varsa—Vətəndir!

Bu baxımdan Vətənimiz Azərbaycanın daim başını dik tutmağa daha çox haqqı çatır. Çünki, xalqımızın apardığı müstəqillik mübarizəsində və torpaqlarımızın bütövlüyünü qorumaq uğrunda gedən döyüşlərdə canlarından keçmiş 20 Yanvar, Qarabağ müharibəsi şəhidləri var. Zənnimcə ölüm nə qədər acı olsa da, Vətən, el yolunda ölmək, şəhidlik zirvəsinə ucalmaq bir o qədər şərəflidir. Ulu Babəkin bir sözünu tez-tez yada salıram: «Azadlıq verilmir, qan və qurban bahasına alınır». Biz də azadlığımızı qan və qurbanlar bahasına almışıq. İstərəm 20 Yanvar və Qarabağ şəhidlərini anarkən deyək:—Başın sağ olsun, Vətən! Qoy ölən də, itən də biz olaq. Təki adına, şərəfinə söz gəlməsin! Təki azadlığımızı, müstəqilliyimizi və bütövlüyümüzü tanrı bizlərə çox görməsin!

*Şəhidlik bir uca zirvə.*
*O zirvəyə qalxmaq çətin.*
*Ucalığı dəf etməyə,*
*Gərək ola cəsarətin.*

*Söz anlayıb söz qanmayan.*
*Yaxşı, pisi duyanmayan.*
*Top səsinə oyanmayan*
*İnanmıram ola mətin.*

*Çətinliyə alışmayan,*
*El nəfinə çalışmayan,*
*Haqq uğrunda vuruşmayan.*
*Qulu olar əsarətin.*

*Cünəş, Ulduz, Ay olmazsan*
*Coşqun selli, çay olmazsan*
*Mübarizə tay olmazsan,*
*Yoxdursa canda qeyrətin.*

**Cəlil KOMRADLI.**

# Növbəti qanvermə aksiyası keçirilib

"Gilan Holding" Qəbələ rayonunda talassemiyadan əziyyət çəkənlərə kömək etmək məqsədilə növbəti qanvermə aksiyası Azərbaycan Talassemiya Federasiyasının dəstəyi ilə keçirilib.

Könüllülük prinsipinə əsaslanan aksiyada holdinqin rayonda yerləşən şirkətlərinin əməkdaşları iştirak edib.



Aksiyanın əsas məqsədi müalicəsi olduqca çətin və bahalı olan talassemiya xəstəliyindən əziyyət çəkən insanlara, xüsusən də uşaqlara yardım etmək və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaqdır.

"Qan ver, həyat ver!" adlı aksiya Qəbələ Konserv Zavodunda təşkil edib.

**"Qəbələ"**

# Vətən istəyi, yurd məhəbbəti

...Onda mən uşaq idim. Anam tez-tez deyirdi ki, Türkiyədə Abid adlı əmim oğlu yaşayır.

1963-cü ildə Abid əmimdən məktub gəldi. Məktub çox maraqla qarşılandı, hamı məəttəl qaldı, həm də sevindi. Məlum oldu ki, Abid əmi Türkiyənin İzmir şəhərində yşayır.

...Aradan xeyli vaxt keçmişdi. 1969-cu ilin yayı idi. Biz Abid əminin qardaşı oğlu Sadayın toyuna bir gün qalmış kəndimizdə, Bumda qarşıladıq. Abid əminin də sevinci sonsuz idi. Qanadı yox idi ki, uçsun. O, qardaşı oğlunun toy məclisində təm-təraqla iştirak etdi, xatirə şəkilləri çəkildi. Bu inanılmaz gəliş onu tanıyanların da, tanımayıb eşidənlərin də sevincinə səbəb oldu. Hamı onunla söhbət etmək istəyirdi. Bu görüş hamının qəlbində silinməz izlər buraxdı. Abid əmi tezliklə geri döndü. Lakin, Vətənimiz öz müstəqilliyinə qovuşandan sonra hər şey dəyişdi. Eloğlumuz asanlıqla öz ata yurduna sağlığında bir neçə də ziyarət etdi. Sonuncu dəfə o, ölümündən bir il qabaq—1993-cü ildə Buma gəlmişdi.



**Soldan ikinci Patrisa xanım, üçüncü Murad bəy və dördüncü Müqəddəs xanım**

Abid Xasməmmədov 1963-cü ildə İzmirdən Amerikaya köçüb və New Tersy şəhəində yaşayıb.O, italyan qızı Yolonda xanımla ailə qurub. Onların Müqəddəs adlı qızı və Murad adlı oğulları var.

Abid əmi çox vətənpərvər, qonaqpərvər bir insan idi. Xalqına, elinə, obasına olan sevgi onda heç zaman səngimirdi. Azərbaycanın incəsənət xadimləri Zeynəb Xanlarova, Avtandil İsrafilov, Kamil Cəlilov və başqaları Amerikaya səfərləri zamanı dəfələrlə onun qonağı olub.

Abid Xasməmmədov vəfat etdikdən sonra oğlu Murad ilk dəfə 2010-cu ildə Ramazan ayında ata-baba evinin qonağı olub. İkinci dəfə o, 2015-ci ildə Buma gəlib. Muradın hər gəlişi qohum-əqrabanın qonşuların sevincinə səbəb olur. Hamı onun başına toplaşır, maraqlı suallar verirlər Murada. Hər dəfə gələndə ömür-gün yoldaşı amerkalı Patrisa xanımı da özü ilə gətirir.

Muradın 2017-ci ilin avqustundakı gəlişi isə qohum-əqrəbanı daha çox sevindirdi. Bu dəfə o, Patrisa xanımla bərabər doğma bacısı Müqəddəs xanımı da gətirmişdi. Bu gəliş bizim üçün toybayrama çevrildi.

Bəli, əsil Vətən, torpaq, qohum-əqraba istəyi, sevgisi budur.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**«Qızıl qələm» media mükafatı laureatı.**

# 2017-ci ildə əhalinin sosial müdafiəsi ilə bağlı tədbirlər davam etdirilmişdir

Prezident İlham Əliyevin 25 dekabr 2017-ci il tarixli fərmanı ilə 2018-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqının məbləği 130 manat müəyyən edilib.

Dövlət Statistika Komitəsinin (DSK) verdiyi məlumata görə, 2017-ci il dekabrın 1-i vəziyyətinə iqtisadi fəal əhalinin sayı 5 milyon 73,2 min nəfər olub. Onlardan 4 milyon 821,8 min nəfəri məşğul əhalidir. Həmin dövrdə ölkə üzrə rəsmi işsiz statusu verilən şəxslərin sayı 36,9 min nəfər olub ki, onların da 36,8 faizi qadınlardır. İşsizliyə görə ödənilən müavinətlərin orta məbləği 288,5 manata çatıb.

DSK-dan verilən məlumatda o da bildirilir ki, 2017-ci ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artıb. Əmək haqqı neft sektorunda 3084,4, qeyri-neft sektorunda 465,2 manat təşkil edib. 2017-ci ildə özəl sektorda çalışanların əməkhaqqı da yüksək olub - 711,5 manat.

Bunlardan əlavə, 2017-ci ilin 11 ayında ölkə əhalisinin ümumilikdə nominal gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,2 faiz artaraq 43 milyard 389,9 milyon manata çatıb. Bu dövrdə əhalinin hər nəfərinə düşən gəlirlər isə orta hesabla 4459,1 manat olub. 2017-ci ildə əhalinin əldə etdiyi gəlirlərin 84,8 faizi son istehlak xərcləri-nə, 8,5 faizi vergilərə, sosial sığorta və könüllü üzv haqlarına, 1,8 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf olunub, 4,9 faizi yığıma yönəldilib.